# Qərbi Azərbaycanın etno-mədəni mühitinə səyahət ziyarətçilərdə xoş duyğular oyatdı

Elmi araşdırmalardan, tarixi mənbələrdən, habelə ötən əsrin əvvəllərində yaşanan həyat tərzindən məlum olduğu kimi, Qərbi Azərbaycanda soydaşlarımızın yaratdığı tarixi irs çox zəngindir.

Bunu bu günlərdə Mədəniyyət Nazirliyinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda təşkil olunan Qərbi Azərbaycanın etno-mədəni mühitinin, habelə qeyri-maddi mədəni irsinin nümayiş etdirilməsindən də aydın hiss etmək olurdu.

Qərbi Azərbaycan ellərini görməyənlər də görənlər qədər o yerlərə getmək, gəzmək, hətta o səfalı diyarda yaşamaq istəyindədirlər. Çünki hər kəs inanır ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində günlərin birində izimizin, sazımızın, sözümüzün yaşadığı yurdumuza qayıdacağıq. Bizi Qərbi Azərbaycana addım-addım yaxınlaşdıran hadisələrin şahidi oluruq.

Ölkə ziyalılarının, millət vəkillərinin, dövlət rəsmilərinin, paytaxt sakinlərinin, habelə turistlərin də böyük maraqla qatıldığı "Qərbi Azərbaycanın etno-mədəni mühitinə səyahət" adlı tədbirdə Qərbi Azərbaycana məxsus milli geyim və mətbəx stendi, gündəlik həyatda istifadə olunmuş məişət əşyaları, tarixi abidələrin 3D maketləri nümayiş etdirildi. Bu tanıtma ilə Heydər Əliyev parkında bir el bayramı yaşanırdı. Bir tərəfdə Qərbi Azərbaycana aid eksponatların sərgiləndiyi köşk, o biri tərəfdə həmin ellərə aid şirniyyat növlərindən ibarət süfrələr, başqa bir tərəfdə Qərbi Azərbaycanın daş yaddaşını əks etdirən maketlər təqdim olunurdu. Hər kəsin üzündə sevinc, həyəcan vardı, adama elə gəlirdi ki, tədbir sona çatan kimi insanları maşınlara yığıb öz yurdlarına aparacaqlar. Elə adamlar vardı ki, quşdan qanad alıb o yerlərə uçmaq istəyirdi. Sərgidə Qərbi Azərbaycan ellərinin ruhu canlanırdı...



Təqdim edilən milli geyimlər Bakı Milli Geyim Evində hazırlanıb. Geyim evinin əməkdaşı ziyarətçilərə bildirdi ki, sərgilənən geyimlər XVIII əsr Zəngəzur bölgəsi, Naxçıvan və İrəvan xanlığının geyim nümunələridir və xan ailəsinin ziyafət geyimlərini tərənnüm edir...

Parkın şimalında qurulan köşkdə Qərbi Azərbaycanın Pəmbək mahalının Arcut kəndinə aid qədim məişət əşyaları sərgilənirdi. Sərgidə nehrə, cəhrə, yun darağı, sərnic, qəndqıran, ütü, badya, şadara, xəlbir, səhəng və sair məişət əşyaları, tarixi eksponatlar nümayiş olunurdu. Köşkdə Arcut sakini Rəfiyev Səyyad İsrafil oğlunun illər boyu topladığı və böyük məşəqqətlə Azərbaycana gətirdiyi eksponatlar diqqət çəkirdi. Səyyad Rəfiyev bildirdi ki, 45 il tarix müəllimi işləyib, gənclik illərini Pəmbək mahalnın Arcut kəndində keçirib. "Ora Quqark deyirdilər, amma əsl adı Qarakilsədir. Bütün toponimlər və digər adlar ermənilər tərəfindən saxtalaşdırılıb. Sizin burada gördüyünüz məişət əşyalarının hamısı Arcut sakinlərindən toplanıb. Burada eksponatların çox cüzi bir hissəsi nümayiş olunur. Bu, mənim muzeyimin eksponatlarıdır. Mən özüm 1980-ci ildə Arcutda tarix-diyarşünaslıq muzeyi yaratmışdım. O vaxt bu muzey haqda erməni mətbuatı da yazmışdı. Ermənistanda keçirilən müəllimlərin V qurultayında iştirak və çıxış etmişəm. Muzey 1980-ci ildən kənddə fəaliyyətə başlamışdı. Orta məktəbin binasında yerləşirdi. Bu ekponatları bir-bir toplamışam, bəzilərini qohum-əqrabadan almışam, bəzilərini də kənd camaatı verib. Şagirdlərimin bu işdə mənə köməyi dəyib. İki dəyirmanımız vardı, onların daşını da qoymuşdum eksponatların içinə. Xış, kotan, bir sözlə, çoxlu əmək alətləri vardı. Mən bu eksponatları çətinliklə gətirdim. Zəlzələ olmasaydı, biz özümüz də, irsimiz də orada məhv olacaqdıq. Sevinirəm ki, bunları vaxtında toplaya bilmişəm. Muzeyimin eksponatlarını Bakı şəhəri 99 nömrəli məktəbdə saxlayıram. Rəhbərlik etdiyim Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların Heydər Əliyev adına Tarix Diyarşünaslıq Muzeyində 2 minə qədər eksponat var".

Parkın digər bir hissəsində Qərbi Azərbaycan mətbəxinin kiçik bir mənzərəsi ilə tanış olduq. Burada İrəvan, Qərbi Azərbaycan mətbəxinə aid xörəklər, şirniyyat növləri təqdim edilirdi. İnsanların böyük maraq göstərdiyi məşhur İrəvan kətəsi, əyirdək, qatlama, fəsəli və başqa şirniyyatların hamısı qədim çağlara aid milli mətbəx şirniyyatları idi. İrəvanın çay buketi təqdim edildi, müxtəlif otlar, çaya ətir qatan ədviyyatlar nümayiş olundu. İrəvan çay süfrəsini təşkil edən Vəsilə Ələkbərova izləyicilərə bildirdi ki, Bakıda ilk dəfə olaraq belə bir təqdimat keçiririk. "Gün o gün olsun ki, bu təqdimatı Qərbi Azərbaycanda təşkil edək. Azərbaycanın qərb bölgəsi çox zəngin mətbəx mədəniyyətinə malikdir. Biz burada çox kiçik çay dəstgahı təqdim edirik. Hər şirniyyatın özünün öz mənası, bişirilmə səbəbi olub. İrəvan kətəsini İrəvan xanı çox sevib və bu, bizim mətbəximizdə yer alıb. Balıq çörəyi də özünəməxsus bir bişmişdir. Burada zəngin Qərbi Azərbaycan mətbəxinin kiçik bir mənzərəsini yaratmışıq".

Tədbirin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində onun adını daşıyan Heydər Əliyev Mərkəzinin qarşısında keçirilməsi rəmzi xarakter daşıyır. Ümummilli Lider inanırdı ki, nə vaxtsa, ədalət bərpa olunacaq və qərbi azərbaycanlılar öz yurdlarına qayıda biləcəklər.

Qərbi Azərbaycanın etno-mədəni həyatı insanlarda böyük təəssüratlar yaradırdı. Sazlı-sözlü Göyçənin aşıqlarını dinlədikcə, müğənnilərə qulaq asdıqca ziyarətçilərdə əminlik yaranırdı ki, vaxt gələcək, belə bir tədbir Qərbi Azərbaycan ellərində də keçiriləcək.

Görünən odur ki, Qərbi Azərbaycan təkcə ərazi deyil, həm də o torpaqlarda yaşamış insanların həyatıdır, məişətidir, etnoqrafiyasıdır, yaratdıqları böyük mədəniyyətdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 sentyabr.- S.6.